Ədalət 2019.- 14 noyabr.- S.8.



# İşıqlı sənətkar ömrü

**Bu günlərdə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində Aybəniz Ağa qızı Ağayevanın "İşıqlı sənətkar ömrü" adlı yeni kitab-albomu işıq üzü görüb. Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərovun 65 illiyinə həsr olunmuş yeni nəşr istedadlı fırça ustasının həyat və yaradıcılığına güzgü tutur. Müəllifin sayca üçüncü olan bu kitab-albomunu vərəqlədikcə, Əli Səfərovun Naxçıvan Dövlət Musiqili Dram Teatrında, Babək Rayon Xalq Teatrında quruluşçu rəssam kimi fəaliyyəti, rəngkar kimi yaradıcılığı, həmçinin müxtəlif illərdə çəkilmiş foto-şəkillər, tamaşa və geyim eskizləri, maketləri, rəngkarlıq əsərləri, çiyin-çiyinə işlədiyi yaradıcı adamlar haqqında zəngin məlumat əldə edilir.**

H.Cavid, C.Məmmədquluzadənin ev muzeylərində, Naxçıvan Dövlət Şəkil Qalareyasında istedadlı rəssamın ərsəyə gətirdiyi neçə-neçə səhnə və geyim eskizləri, maketlər, rəngkarlıq əsərləri "İşıqlı sənətkar ömrü"ndə öz parlaq əksini tapır. Kitab-albomda doğma diyarımızın əsrarəngiz mənzərələrinin əks olunduğu tabloları, portretləri seyr etdikcə tanınmış fırça ustasının çoxşaxəli yaradıcılığı oxucunu sənət dünyasının dərinliklərinə aparır, ülvi duyğularla zənginləşdirir və xoş təsir bağışlayır. Milli dəyərlərimiz, adət-ənələrimiz rəssamın əsərlərində öz əksini tapır.

Orta məktəb illərindən rəsm çəkməyə başlayan istedadlı rəssamın baş qəhrəmanı insandır. O, özünüifadənin ən yaxşı üsulunu bəşər övladının müxtəlif məqamlarında, fərqli məkanlarda, dəyişik emosional-ruhi situasiyalarda rənglərlə "dondurmaqda" görür. İlk baxışda elə təəssürat yaranır ki, onun qəhrəmanları şəkil çəkdirmək üçün fotoqrafın qarşısında duran lal-dinməzlərdir. Lakin bu zahiri və keçici görüntü bir anın içərisində alt-üst olur. Al-əlvan rənglər çöhrələrə min-bir məna, gözlərə işıq, saçlara yaraşıq verir, rəssamın qəhrəmanının baxışı səni duyğulandırır, təsirləndirir, xəyala daldırır, düşündürür, ovsunlayır, doğmalaşdırır

Hər rəngin dilini, yerini bilən rəssam kiçik bir ştrixlə istəyinə nail olmaq qüdrətindədir. Rəssamlıq sənətinin bütün formalarında (quaş, pastel, akril, kömür ) özünü sınayan Əli Səfərli qəhrəmanının daha qabarıq, daha xarakterik, özünəməxsus cizgisini üzə çıxarmaq, müşahidə etmək və onu kətana, yaxud kağız üzərinə həkk etməyin mahir ustasıdır. Onun "Ulu öndər","Ümummili lideri Heydər Əliyev" portretləri,"Nizami", "Dədə Qorqud", "Səttar","Azərbaycan" əsərləri dərin sevginin rənglərlə ifadəsidir. Bu tablolara hərəkətlilik, dinamizm çaları gətirən rənglər canlı obraz təsiri bağışlayır, romantik hisslər, duyğular oyadır.

Rəssam təbiət mənzərələrini də kətana köçürməyi sevir. Onun "Yaz gəldi", Ağaclıq","Təbiətin möcüzəsi","Gəmiqaya"sında dağlar,buludlar, vadilər, dərələr rəmglərin minbir sehri ilə tamaşaçını özünə çəklir, ruhunu oxşayır, yaxın,uzaq xatirələri yada salır.




Bu təbiət mənzərələri Əli Səfərli üçün bir obrazdır, simvolikadır, təmizliyin, paklığın, ümidlərin, xəyalların, intəhasızlığın inikasıdır.

Milli rəssamlığımızda xüsusi yeri olan natürmort janrına Əli Səfərli teztez müraciət edir. Onun natürmortlarındakı rəngbərəng çiçəklər, güllər gövdədən qoparılsa da, qəlbləri fəth etmiş, orada məskən salmışlar. Rəssamın rəsmləri rənglər kimi sədd-sərhəd tanımır, şəhərbəşəhər, ölkəbəölkə sərgilənir. Naxçıvan Rəssamlar Birliyinin təşkil etdiyi sərgilərdə mütəmadi iştirak edir. 1996-cı ildə Urmiya şəhərində, 2001-ci ildə Bakıda, İqdirdə, 2003-cü ildə yenə İqdirdə, 2005-ci ildə Bakıda və digər şəhərlərdə sərgiləri təşkil olunmuş, böyük maraqla qarşılanmış, əks-səda doğurmuşdur. Fərdi sərgilərində rəy kitabına yazılanlarda belə bir fikir ifadə olunur ki, Ə.Səfərlinin rəsm əsərlərində sanki həyatın mənası, hisslərin məğzi barədə suallara cavab axtarılır. Onun işləri həm peşəkar rəssamların, həm də incəsənət pərəstişkarlarının böyük marağına səbəb olur. Bu əsərlərdən ətrafa hərarət yayılır. Çoxsaylı elementləri özündə cəmləşdirən bu işlər güclü emosiyalar doğurur, insana ruh verir, güclü daxili ekspressiya, rəng duyumu ilə təəccübləndirir, insanı heyran edir.

**İstedadlı rəssamın yaradıcılığı, müxtəlif janrlarda çəkdiyi əsərləri onun həyat kitabıdır. Bu həyat kitabında Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının tarixi, abidələri, təbiəti, mədəniyyəti, eləcə də görkəmli şəxsiyyərlərinin portretləri dolğun əks olunmuşdur. Bu əsərlər zəngin mədəni irs olmaqla yanaşı, həm də muxtar respublikanın bütün sahələrindəki həyatının təbliğinə xidmət edir.**

**Hüseyn Əsgərov**